**Gədəbəy rayonu Söyüdlü kəndində qızıl mədəni ətrafında baş verən etiraz aksiyasının polis zorakılığı ilə dağıdılması haqqında**

**Vətəndaş cəmiyyəti fəallarının**

# BƏYANATI

İyunun 20-də Gədəbəy rayonunun Söyüdlü kəndinin ərazisində qızıl mədəninin tullantılarından süni göl yaradılması yerli sakinlərin etirazına səbəb olub. Onlarla sakin ərazidə artıq bir süni gölün olduğunu və zəhərli maddələrlə ətraf mühiti çirkləndirdiyini əsas gətirərək ikinci belə bir gölün qurulmasına etiraz bildirmək üçün bir araya toplanıblar. Sakinlər bildirib ki, süni göllər ərazidə maldarlıq fəaliyyətinə mane olur, insanların səhhətinə mənfi təsir edir. Bundan əvvəl də media qurumlarında ərazidəki tullantıların yerli təsərrüfata ziyan vurması ilə bağlı xəbərlər yer alıb.

Ancaq səlahiyyətli qurumlar sakinlərlə görüş keçirərək onların problemlərini dinləməyi bacarmayıb. Əvəzində isə əraziyə Daxili Qoşunlara aid olduğu iddia olunan onlarla əməkdaş yeridilib, yerli sakinlərlə qarşıdurmaya gedilib. Mediada geniş yayılan görüntülərdə yerli sakinlərə qarşı rezin güllələr, dəyənək və gözyaşardıcı qazdan istifadə olunduğu, Daxili İşlər Nazirliyi əməkdaşlarının etirazçılara qarşı fiziki güc tətbiq etməsi aydın müşahidə olunub. Sonda hadisələr 10-dan çox şəxsin xəsarət alması, 5 nəfərin inzibati qaydada həbsi və 1 nəfərin isə 1500 manat cərimələnməsi ilə yekunlaşıb.

Daxili İşlər Nazirliyi hadisədən sonra yaydığı bəyanatda yerli sakinləri tənqid edərək onların xəbərdarlıqlara və izahedici söhbətlərə baxmayaraq etiraz aksiyası keçirdiyi bildirilsə də polis əməkdaşlarının niyə qeyri-proporsional güc və vasitələrdən istifadə etməsi ilə bağlı məsələyə toxunulmayıb. Hadisə yerinə sonrakı gün gəlmiş Gədəbəy rayonu icra başçısı Orxan Mürsəlov da sakinləri məlumatsızlıqda və polisə qarşı müqavimətdə günahlandırıb, məsələyə birbaşa aidiyyatı olmayan iradlar dilə gətirib. Qeyd etmək lazımdır ki, polisə qarşı müqavimət hallarını əks etdirən heç bir sübut ortaya qoyulmayıb və hətta polisə qarşı müqavimət halında belə kütləvi cəza tədbirləri qeyri-qanuni xarakter daşıyır. Ərazidə qızıl hasilatını həyata keçirən “AzərGold” QSC hadisə ilə əlaqəsi olmadığını bildirib, Ekologiya və Təbii Sərvətlər Nazirliyi isə hadisəyə ümumiyyətlə münasibət bildirməyib. Yekunda vətəndaşların ətraf mühit və yerli ehtiyaclarla bağlı iradlarını dinləyən və ya nəzərə alan rəsmi qurum olmayıb.

Bəyanatı imzalayanlar xatırladır ki, ətraf mühit problemləri və yerli ehtiyaclarla bağlı etiraz edən sakinlərə qarşı polis zorakılığından istifadə edilməsi ilk belə hal deyil. Elə 2023-cü ilin Mart ayında da Saatlı rayonunun Nabatkənd və Orta Muğan kəndlərinin sakinlərinin su qıtlığı ilə bağlı etiraz aksiyası polis tərəfindən rezin güllədən istifadə edilərək dağıdılıb, bir neçə sakin yaralanıb və inzibati qaydada həbs olunub. Bu isə Azərbaycanda ictimai iştirakçılıq təşəbbüsləri qarşısında sistematik əngəllər olduğunu göstərir.

Biz bildiririk ki, ətraf mühit problemləri və yerli ehtiyaclarla bağlı haqlı etirazlarını dilə gətirmək hüququ vətəndaşların həm Konstitusiya, həm də Azərbaycanın tərəfdaş çıxdığı beynəlxalq konvensiyalarda, o cümlədən ətraf mühit məsələlərinə dair informasiyanın əldə edilməsi, qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakı və ədalət mühakiməsinə müraciət ilə

bağlı BMT Avropa İqtisadi Komissiyasının Konvensiyasının ("Orxus Konvensiyası") müddəası ilə qorunur. Bu hadisə ilə əlaqəli təməl insan hüquq və azadlıqlarına isə ölkə həyatında iştirak, sərbəst toplaşmaq və ifadə azadlıqları, sağlamlıq, yaşamaq, mülkiyyət və məlumat almaq hüquqlarını misal çəkmək olar.

Bəyanatı imzalayanlar xatırladır ki, kommersiya qurumlarının mülkiyyət hüquqlarından istifadə, həmçinin, həmin ərazidə olan insanların təməl hüquq və azadlıqları çərçivəsində həyata keçirilməlidir. Beynəlxalq məhkəmə praktikası göstərir ki, kommersiya qurumları tərəfindən mülkiyyətdən bu tələblərə uymayan formada istifadə adıçəkilən hüquq və azadlıqların birbaşa pozuntusudur. Sakinləri dinləməyib dinc etirazı zorakılıqla dağıtmaq isə yuxarıda sadalanan təməl insan hüquqlarının pozuntusu olmaqdan əlavə vətəndaşları ictimai iştirakçılıq təşəbbüslərindən daha da uzaqlaşdırmaq məqsədi daşıyır.

İmzalayanlar eyni zamanda qeyd edir ki, vətədanşların həyatına təsir edən qəraların qəbulu zamanı onların rəyinin alınmaması, seçkili yerli institutların mərkəzi və yerli icra orqanlarından asılı olması sosial rifahın pisləşməsinə və ədalətsizliyə səbəb olur. Bununla bağlı olaraq bəyanatı imzalayanlar vətəndaş cəmiyyəti fəalları və digər aktiv kəsimləri bu məsələni gündəmdə saxlamağa, aidiyyatı qurumları etirazçıların şikayətini dinləməyə və araşdırmağa, hüquq-mühafizə orqanlarını isə zorakılıq tətbiq edən əməkdaşlar barədə effektiv araşdırmalar aparmağa və məsuliyyətə cəlb olunmalarına çağırır.

Aşağıdakı şəxslər imzaları ilə bəyanata qoşulduqlarını təsdiq edirlər:

Akif Qurbanov, Demokratik Təşəbbüslər İnstitutu
Anar Məmmədli, Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi
Araz Əliyev, Nida Vətəndaş Hərəkatı
Aygül Cəfərova, ictimai fəal
Bəşir Süleymanlı, Vətəndaş Hüquqları İnstitutu
Elgiz Qəhrəman, ictimai fəal
Elşən Süleymanov, Göyçay İcma İnkişaf Mərkəzi
Əbülfəz Qurbanlı, Artikl54 İctimai Birliyi
Əhməd İsmayılov, ictimai fəal
İmran Əliyev, "Meclis.info" Parlamentin Monitorinq Plaftorması
Kənan Qayıbov, Artikl 54 İctimai Birliyi
Məmməd Məmmədzadə, İştirak Evi
Murad Rüstəmbəyli, araşdırmaçı
Rövşən Nəzərov, "Eko & Urban" təşəbbüsü
Röya Məlikzadə, Ecobill
Rüstəm İsmayılbəyli, ictimai fəal
Sübhan Həsənli, hüquqşünas
Toğrul İsmayılov, ictimai fəal
Toğrul İsmayılov, ictimai fəal
Toğrul Vəliyev, iqtisadçı
Tural Ağayev, hüquqşünas